## VİDEO TƏLİM PLATFORMASI

✓Sahibkarların, biznesə başlamaq istəyənlərin və startapların təlim və tədris imkanlarının onlayn qaydada təmin edilməsi üçün video təlim platforması fəaliyyət göstərir.

✓Bu platformada biznesə dair 180 təlim videosu, təlim materialları və özünüqiymətləndirmə testləri yerləşdirilib.

✓Təlim videoları biznesə başla, korporativ hüquq, layihə idarəetməsi, maliyyə, satış, marketinq, turizm və ixrac prosesinin təşkili istiqamətlərini əhatə edir.

✓Platformanın imkanlarından www.kobim.az saytında qeydiyyatdan keçməklə faydalanmaq olar.

✓Platformadan istifadə ödənişsizdir.

KOBİA

Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

# Sahibkarların bilik və bacarıqlarının artırılması

www.smb.gov.az

## TƏLİM VƏ MƏSLƏHƏT XİDMƏTİ

✓Sahibkarların biznes sahəsində bilik və bacarıqlarının artırılması üçün təlimlər keçirilir, məsləhət xidməti göstərilir.

✓Bu xidmətlər KOBİA-nın ölkənin müxtəlif şəhər və rayonlarında fəaliyyət göstərən KOB inkişafı mərkəzləri (KOBİM) tərəfindən həyata keçirilir.

✓Xidmətlərdən mikro, kiçik və orta sahibkarlıq subyektləri, biznesə başlamaq istəyənlər və startaplar faydalana bilərlər.

✓Xidmətlər təcrübəli və peşəkar ekspertlər tərəfindən fərdi və qrup halında təqdim edilir.

✓KOBİM-lər tərəfindən göstərilən bütün xidmətlər ödənişsizdir.

✓Təlim və məsləhət xidmətləri biznesə başla, biznes planın hazırlanması, layihə idarəetməsi, maliyyənin idarə olunması, korporativ hüquq, satış, marketinq, rəqəmsal bacarıqlar, “Yaşıl iqtisadiyyat” və s. istiqamətləri əhatə edir.

## BEYNƏLXALQ İXTİSASARTIRMA KURSU

✓Sahibkar və menecerlərin biznes sahəsində beynəlxalq təcrübəyə yiyələnməsi məqsədilə KOBİA və GİZ-in əlaqələndirici olduğu “Almaniya ilə biznes əməkdaşlığı” Proqramı ("Partnering in Business with Germany") həyata keçirilir.

✓Proqram çərçivəsində Almaniyaya səfər edən iştirakçılar tədris mərkəzlərində nəzəri və praktik biliklərə yiyələnir, istehsal müəssisələrini ziyarət edir, işgüzar əlaqələrini genişləndirirlər.

✓Proqram ingilis dilindədir.

✓İştirakçıların seçimi Almaniya mütəxəssisləri tərəfindən müsabiqə əsasında həyata keçirilir.

✓İştirakçıların proqram çərçivəsində olan xərcləri (nəqliyyat xərcləri istisna olmaqla) Almaniya tərəfindən qarşılanır.

✓Kursu uğurla bitirənlərə beynəxalq sertifikat verilir.